*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 158-165* *E-ISSN 2709-2699*
*http://dx.doi.org*

# Gəncəli Sabahinin ədəbi mühiti və yaradıcılığı

**Pərvanə Məmmədli**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: mamedli_ph@yahoo.com

**Annotasiya.** Gəncəli Sabahi Güney Azərbaycan ədəbi mühitində “Anadilli Güney nəsrinin atası” kimi qəbul edilmişdir. Əsərlərində xalqının keşməkeşli taleyini, zəngin tarixi keçmişini əks etdirmişdir. Onun əsərləri həm də işıqlı gələcəyə olan ümidlərin ifadəsi olmuşdur. S.Gəncəli görkəmli nasir olmaqla yanaşı, Güney ədəbi tənqidinin də gözəl nümunələrini yaratmışdır. Bu baxımdan müəllifin “Şeirimiz zamanla addımlayır” adlı məqalələr toplusunda təqdim etdiyi yazılar Güney ədəbiyyatının tənqid və ədəbiyyatşünaslığında çox önəmli yer tutur. Ədibin bu kitabı Güney Azərbaycan ədəbiyyatı tarixində yazıçı və şairlərin ömür yolu və yaradıcılıqları haqqında yazılan ilk mənbələrdən sayıla bilər.
Gəncəli Sabahinin bədii və ədəbi əsərləri müxtəlif illərdə və başqa-başqa mövzularda yazılsa da, Azərbaycanın milli məsələləri ilə bağlı ideya ətrafında birləşmişdir.
**Açar sözlər:** Gəncəli Sabahi, Güney, ədəbi mühit, nəsr, milli məsələlər

**Məqalə tarixçəsi:** göndərilib – 16.11.2022; qəbul edilib – 30.11.2022

# The literary environment and creativity of Ganjali Sabahi

**Pervane Mammadli**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: mamedli_ph@yahoo.com

**Abstract.** In the literary environment of Southern Azerbaijan, Ganjali Sabahi was perceived as “The Father of the Original Southern Prose”. Despite the fact that he and his people experienced many hardships, which is reflected in his writings, this suffering not only served as a reminder of the tragedies of the past, but also expressed hope for the future.
The artistic works of Ganjali Sabahi were written in different years and on different topics, they were united by the idea of the national problems of Azerbaijan.
**Keywords:** Ganjali Sabahi, South, literary environment, prose, national issues

**Article history:** received – 16.11.2022; accepted − 30.11.2022

## Giriş / *Introduction*

Gəncəli Sabahi Güney Azərbaycanda nəsrin demokratik mahiyyətli ədəbi axına çevrilməsində və dövrün ədəbi məcrasını yönləndirməkdə böyük xidmətləri olan yazıçıdır. G.Sabahi Güney Azərbaycan ədəbi mühitində “Anadilli Güney nəsrinin atası” kimi qəbul edilmişdir.

Gəncəli Sabahi 1906-cı ilin fevral ayında Güney Azərbaycanın Mərənd şəhəri yaxınlığındakı Qanlı dağın ətəyində yerləşən Miyab kəndində anadan olmuşdur. Atası Yunis kişi minlərlə azərbaycanlı kimi yoxsulluqdan və ictimai fəlakətdən can qurtarmaq üçün Arazın bu tayına köçməli olmuşdu.

Yeddi yaşında olanda anası onu da götürüb Şimali Azərbaycana – həyat yoldaşının yanına gəlir. O dövrdə Gədəbəyin, Daşkəsənin qiymətli filiz yataqları Bakının neft mədənləri kimi iş dalınca gələnlərin ən çox pənah gətirdikləri məkanlar idi. Bu yerlərdə həyat şəraiti ağır olsa da, Gəncəli düşdüyü yeni mühitə uyğunlaşa bildi. Gədəbəydə atası onu əvvəl oxumaq üçün bir mollanın yanına aparır. Özünün də yazdığı kimi, “bir gün dövlət tərəfindən gəlib mollaxananı bağladılar; hər kəs oxumaq istəsə, getsin rus məktəbində oxusun, dedilər” [7, s.21].

**Əsas hissə / *Main Part***

1914-cü ildə I Dünya müharibəsi başlayır. Ailədə ikinci övlad – Səməd (sonralar tanınmış rejissor və ictimai xadim kimi tanınan) dünyaya gəlir. Gədəbəyin soyuq, sərt təbiəti artıq körpə uşaqlı ailəyə heç əl vermirdi. Mərəndin isti, mülayim havasına öyrəşmiş ailə daha əlverişli iqlimi olan və dağ ətəyi düzənlikdə yerləşən Anninfildə (bir zamanlar alman icmasının məskunlaşdığı və qədim Şəmkirə yaxın bir yerdə bina salıb Şamxor adlandırdıqları indiki Şəmkir şəhərinə) köçməyə qərar verir və orada bir çörəkçi dükanı açır. Gəncəli ilk və orta məktəb təhsilini də Şəmkirdə alır. Məktəb illərində teatr səhnəsində rol alıb oynayandan sonra Gəncəlidə teatr və aktyorluq sənətinə böyük maraq oyanır. Lakin bu elə həvəs olaraq qalır. 1924-cü ildə Gəncədə yeni açılmış “Əmələ fakültəsi”nə daxil olur. 1929-cu ildə isə Bakıda Pedaqoji İnstitutun Dil və ədəbiyyat şöbəsininin tələbəsi olur. Həmid Araslı, Həsən Dəmirçizadə, Məmməd Rahim, Əhməd Əhmədzadə kimi sonralar elm sahəsində tanınan görkəmli şəxsiyyətlərlə bir qrupda təhsil alır. 1932-ci ildə Pedoqoji İnstitutda təhsilini başa vurduqdan sonra Gədəbəyin məktəblərinin birinə müdir təyin olunur. Bir ildən sonra isə Şəmkirin Morul orta məktəbində müdir vəzifəsində işləyir. Onun səyi nəticəsində az müddət ərzində başçılıq etdiyi bu təhsil ocağı nümunəvi məktəb kimi tanınır. Lakin bu xoşbəxt günlərin ömrü uzun olmur. 30-cu illərdə ölkə miqyasında tüğyan edən həbs və sürgünlər bir səmum yeli kimi Gəncəlinin də ailəsinin ocağı başından ötüb keçir. Əvvəlcə şübhəli mühacir damğası altında 22 ay zindanda yatmalı olur. Aradan bir az keçməmiş ailəsi ilə birgə uzun müddətə sürgünə məhkum olunur. Ədib sonralar qələmə aldığı “Ötən günlərim” adlı xatirə povestində həmin dövrü xatırlayarkən yazırdı: “Biz gələcəyə sonsuz bir ümidlə baxıb aram bir həyat sürərkən birdən tufan qopdu. Bədbəxtlik, qara gün qapını aldı. Şuralar ölkəsində yaşayan iranlılar üçün uğursuz bir fırtına qopdu. Axşam oldu. Şam yeyəndən sonra öz vəsiyyətimizi etdik... Yuxu gözümüzdən qaçmışdı. Qaranlıq bir gələcəyin fikri ilə əlləşirdim. Gecə saat iki olardı ki, qapı döyüldü. Atamla bərabər məni aparıb toqufgaha təhvil verdilər” [7, s.34].

Bu “fırtına” Gəncəlinin də ailəsini Qazaxstanın çöllərinə atdı. Ağır sürgün illəri başlandı. O yaşadığı yurdundan, ev-eşiyindən didərgin düşüb üç körpə azyaşlı uşağı və həyat yoldaşı Həbibə ilə Şimali Qazaxıstanın sərt təbiətli və soyuq düzlü çöllərinə 5 il müddətinə sürgün edildi. O, bu illərdə həkimsizlik, dava-dərmansızlıq üzündən bir körpə balasını itirdi. 40 dərəcə şaxtada çöldə çobanlıq da etdi, təhkim olunduğu fermanın donuzları üçün yem də daşımalı oldu. Hər şeydən ağırı bu oldu ki, insani hissləri təhqir və tənələrə məruz qaldı.

1946-cı ildə nəhayət ki, 3000 günlük çətin sürgün həyatı başa çatdı. 40 yaşında ikən arzusunda olduğu doğma yurda, ana vətənə geri döndü. 1945-ci ildə baş vermiş 21 Azər (12 dekabr) inqilabı Azərbaycanın simasını dəyişmişdi. Vətəninə qayıdan zaman Azərbaycanda milli istiqlal hərəkatı qalib gəlmiş, xalq öz taleyinin sahibi olmuşdu. 21 Azər hərəkatının yetirməsi olan Azərbaycan Milli hökuməti ona böyük etimad göstərdi. Yenicə təsis etdiyi Təbriz Dövlət Darülfünunda Dil və ədəbiyyat kafedrasına başçılıq etməyi Gəncəli Sabahiyə etibar etdi. Bütün var qüvvəsi ilə işə başlayan və özünü yenidən doğulmuş kimi hiss edən Gəncəli Sabahi Təbriz radiosunun ədəbi buraxılış şöbəsində Xalq şairi Balaş Azəroğlu ilə birlikdə əməkdaşlıq etməyə başladı.

Az keçməmiş həyatındakı növbəti uğursuzluq onu haqladı. Cəmi bircə il yaşadıqdan sonra daxili və xarici qara qüvvələrin təzyiqi nəticəsində Azərbaycan Milli hökuməti geri çəkilməyə məcbur oldu və 1946-cı il dekabr ayının 11-də Milli Hökumət süqut etdi. Gəncəli Sabahini bu dəfə qarşıda daha dəhşətli sınaqlar gözləyirdi.

G.Sabahinin iztirablı günləri və acılı anları yenidən başladı. O, dekabrın 13-də tutulur və minlərlə Azərbaycanlı kimi işgəncə altına alındı. Nəhayət, "mühacir" və "mətcasir" adıyla neçə ay zindanda qaldıqdan sonra, Loristanın Bədrabad məntəqəsində yerləşən "Qala Müzəffər"ə sürgün edilib, iki il orada qalmağa məhkum olundu.

1948-ci ildə şah ümumi əfv fərmanı verir və Gəncəli Sabahi sürgündən ailəsinin yanına qayıdır. Təbrizdə heç bir iş tapa bilmədiyindən, oradan köçməli olur. 1950-ci ilin yazında ailəsilə birgə Tehrana köçür və qardaşı – görkəmli rejissor Səməd Sabahinin yardımı ilə işə başlayır.

Gəncəli Sabahinin ömür yolu və yaradıcılığını geniş araşdırmaya cəlb edən tanınmış şair və tədqiqatçı Eldar Muğanlı yazır: "Gəncəli Sabahinın Tehranda yaşamağı da çox ağır olur, ancaq o ruhdan düşmədən, öz ictimai və ədəbi fəaliyyətinə davam edir. Xüsusilə neftin milliləşmə hərəkatı adı altında yaranan siyasi atmosferdə o, yoldaşları ilə birlikdə "Azərbaycanlılar əncüməni" və 1952-ci ildə bu əncümənin nəzdində "Azərbaycan yazıçılar və şairlər məclisi"ni yaradır. Tehranda nəşr olunan "Bəşəriyyət" və "Bəşire ayəndə" qəzetində və çoxtirajlı "Çilingər" dərgisində öz əsərlərini yaymağa başlayır.." [3, s.8]

Gəncəli Sabahi Tehranda da təqibə, təzyiqlərə məruz qalır. Bu məhrumiyyətlər, sonralar SAVAK-ın tez-tez sorğu-sualları ilə əvəzlənir və sonrakı illərdə İran İslam İnqilabının qələbəsinə qədər uzanır.

1978-1979-cu illərdə İranda xalqın demokratiya, milli və sosial hüquqlar uğrunda başladığı inqilab tarixə "1978-1979-cu il İran İnqilabı" kimi daxil olur. Gəncəli Sabahi inqilabın verdiyi bütün azadlıqlardan bəhrələnib yaradıcı fəaliyyətə başlayır. Tehranda "Azərbaycan Yazıçılar və Şairlər cəmiyyəti" və "Azərbaycan Əncüməni"nin yaranmasında həvəslə iştirak edir. "Varlıq", "İnqilab yolunda", "Yoldaş", "Ülkər", "Günəş" kimi dərgilərdə nəsr əsərləri və ədəbi-tənqidi yazıları ilə çıxış edir. Tehranda yaşayan Şairlər və Yazıçılar Cəmiyyətinin orqanı olan "Günəş" dərgisinin yaradıcısı və yazarlarından olur. İllər boyu küncdə saxlayıb üzə çıxara bilmədiyi əsərlərini çapa hazırlayır.

Çağdaş nəsrin banısı, yazıçı və tənqidçi Gəncəli Sabahi 1989-cu ildə, 83 yaşında dünyasını dəyişir.

Gəncəli Sabahinin yaradıcılığına bədii nəsri və tənqidi-publisist yazıları daxildir. Ədibin nəsr nümunələri "Qartal" (1979) və "Həyat faciələrindən" (1980) və "Ötən günlərim"(1960) adlı kitablarında toplanıbdır.

Gəncəli Sabahinin ilk işıq üzü görən əsəri "Xain" adlı hekayəsidir. Əsər 1952-ci ildə "Çilingər" dərgisinin son üç sayında çap edilmişdi.

Adətən hekayədə qoyulan əsas məqsəd zaman, məkan və sosial mühit içində yaşayan insanın duyğu və düşüncələrini ortaya qoymaqdır. İnsan həyatının tərkib hissəsi olan bu amillər hekayənin də əsasını təşkil edir. Burada həyati təcrübə ilə sənət adətən birləşir. Yazıçı həyatı nə qədər dərindən qavrasa, əsəri də o qədər əhatəli və gözəl olar. Axırıncı sözlər G.Sabahinin yaradıcılığı ilə tam həmahəngdir.

"Qartal" kitabına "Qartal", "Ana qəlbi", "Arsız Qafar", "Kefli", "Öz aramızda qalsın", "Qocalıqda yorğalıq", "Gül dəstəsi", "Həyat acılıqlarından" və "Uşaq üstə savaş" hekayələri daxildir. Bu hekayələrdə göstərilir ki, insanları əzablara düçar edib onları oğruya, başkəsənə, quldura çevirən ictimai mühit və cəmiyyətdə hökm sürən eybəcər qanunlardır.

G.Sabahinin nəsr yaradıcılığını araşdıran Eldar Muğanlı yazır: "Qartal" məcmuəsindəki hekayələrin bədii fəzası elə canlı, qəhrəmanların ictimai münasibətləri elə dolğun, iki qütblü cəmiyyətin əxlaqı anlamları, kəndlərdən şəhərə üz tutan yoxsul ailələrin əzablı məişətinin bədii təsviri elə inandırıcı və təsiredicidir ki, oxucu sanki özü o hadisələri görüb, yaşamışdır. Bu hekayələrin əsas məziyyəti və yüksək ədəbi dəyəri onlardakı təbii davranış, ictimai tiplər, canlı və dolğun dialoqlardır. Bu keyfiyyətlər Gəncəli Sabahinın bir yazıçı olduğunu göstərir" [3, s.10].

"Qartal" hekayəsi Azərbaycan kəndli qadınının fədakarlığı və ali insani keyfiyyətlərinin tərənnümü ilə yanaşı, ictimai fəlakətin bədii təcəssümüdür.

Hekayənin qəhrəmanı Məmmədə "Qartal" ləqəbini mövcud cəmiyyətin ona bəxş etdiyi cinayətkarlıq peşəsi qazandırmışdı. 14 yaşında ailə ocağından didərgin düşən Məmməd uzun illərdən sonra doğma ailəyə artıq bir quldur kimi qayıdır. Elə bir vaxtda geri dönür ki, cəmiyyətin amansız qanunları anası Nərgizi bir dilənçiyə, qardaşı Həmidi isə vərəm tutmuş bir xəstəyə çevirmişdir. Qanunsuzluq və ədalətsizliyin hökm sürdüyü cəmiyyətin məntiqi də belə olmalıydı:

"Qartal heykəl kimi dayanmışdı. Gözlərindən iri yaş damlaları axırdı. Sanki dərdi ürəyinə sığmır, qəlbində şölənənən atəşi göz yaşları ilə söndürməyə çalışırdı. Nərgizin gözləri ona zillənmişdi:

- Sən ağlayırsan? – deyə soruşduqda Qartal tab gətirə bilməyib:

- Anacan, mənəm, Məhəmmədəm, ana... Kaş, öləydim səni bu halda görməyəydim" [8, s.10].

"Arsız Qafar", "Kefli", "Öz aramızda qalsın" və "Qocalıqda yorğalıq" kimi hekayələr onun satirik ruhda yazılmış əsərlərindəndir. Bu əsərlərdə birbaşa olmasa da, gizli sarkazm, ironiya vardır. "Qocalıqda yorğalıq" hekayəsində yazıçı özünü bazar mühitində güvənli bir insan kimi tanıtdırmağa çalışan Hacı Fərəcin əsl sifətini göstərib ifşa edir. Yaratdığı tipin fırıldaqçılığını və yoxsulların malına göz dikməsini ustalıqla açıb tənqid edir.

"Gül dəstəsi" hekayəsi həcm etibarilə kiçikdir. Əsər yazıçının həyatda görüb yaşadığı bir hadisə ilə bağlıdır. Yazıçı Loristanın "Qala Müzəffər" kəndində sürgündə olarkən, feodalizm quruluşundan doğan haqsızlıqların şahidi olur. Kiçikyaşlı qulluqçu və evin xanımı arasında olan münasibətin ədalətsizlik üzərində qurulduğunu inandırıcı detallarla əks etdirir. Cəmiyyətin namuslu, zəhmətkeş adamlarının etiraz və qəzəblərinə biganə qalmayıb onlarla həmrəyliyini bildirir. "Gəncəlinin bir çox əsərlərinin qəhrəmanı onun şəxsən özüdür və mövzusu yaşayışından doğan bədii keyfiyyətlərdən ibarətdir ki, bunlar onun qələmində bədiiləşir və şəxsilikdən çıxaraq, ümumxalq səciyyəsi daşıyır" [4].

"Həyat acılıqlarından" adlı hekayəsi bəlkə də ədibin ən ağır günlərinin bədii ifadəsidir. Yazıçı bu hekayədə ağrılı-acılı günlərdə dayağı olan həyat yoldaşı Həbibə xanımın ölüm anları ilə yanaşı, 60-cı illərdə cəmiyyətdə gedən proseslərin ağır nəticələrindən, mənəvi dəyərlərin qiymətdən düşməsindən ürək ağrısı ilə yazır.

"Uşaq üstə savaş" hekayəsində yazıçı folklordan gələn və müdrik babalardan eşitdiyi kəlamlarından faydalanaraq, atalar sözünün böyüklüyünü oxucusuna çatdırmağa çalışır.

1980-ci ildə yazılmış "Həyat faciələrindən" adlı digər hekayələr toplusunda xalqın demokratik ideallar uğrunda apardığı mübarizədən və ərbab-rəiyyət arasındakı qarşıdurmalardan bəhs edilir. Yazıçı "Həyat faciələri" kitabında toplanmış əsərlərində qlobal problemlərin yaranma səbəbi və həlli yollarından söhbət açır. O, şah zindanlarında məşəqqətlərə qatlaşan inqilabçıların həyatına, durğunluq dövründə baş alıb gedən ictimai ədalətsizliklərə diqqəti cəlb edir. Bu kitaba qocaman ədibin "Həyat faciələrindən", "Xain", "Ovçu" və "Şərəfli ölüm" kimi bədii estetik cəhətdən ən gözəl əsərləri daxil edilibdir. Bu hekayələrdə Azərbaycan kəndlərindəki zülmət dünyası təbii boyalarla təqdim olunur.

Gəncəli Sabahi "Ovçu" hekayəsini özünün də qeyd etdiyi kimi, dostu Hüseyn Cavidin söylədiyi xatirələr əsasında yazmışdır. Hekayə belə başlayır: "Bu, nə əfsanədir, nə də nağıl, mənim öz başıma gələn əhvalatdır". Hekayənin əvvəlində ovçuluğa aludə olan 15-16 yaşlı bir oğlanın bəslədiyi tut ağacının meyvələrinin bir dəstə sığırçın tərəfindən yeyildiyini görüb onları tüfənglə öldürməsindən söhbət açılır. Oğlanın nənəsi vurulmuş quşları nəvəsinin əlində görəndə deyir:

- Məgər bunları sən yaratmısan ki, sən də qırırsan, vallah bu heyvanların ahı səni tutacaq.

Günlərin bir günü oğlan bir gözəl quşu ovlamaq istəyərkən hündür bir ağacdan yıxılıb möhkəm əzilir. Gözlərini açanda özünü evlərində, yataqda görür. Nənəsi ona deyir: "Mən demədimmi, o quşların qarğışı səni tutacaq?! Sən gördüyün quş haqq quşu imiş. Quşların intiqamını səndən almağa gəlmiş imiş" [6, s.59].

Hekayənin sonu isə çox simvolik bir yekunla tamamlanır. Əsərin qəhrəmanı mahir bir ovçu kimi tanınsa da, sonralar ovçuluğun daşını atır.

"Ovçu" hekayəsi yazıçının yaradıcılığında dərin narahatlıq doğuran haqsızlıqların, eybəcərliklərin qarşısının vaxtında alınması, insanların mənəvi cəhətdən kamilliyi, ədalətli olması, bir-birini və bütün canlıları sevməsinə yönəldilmişdir.

Hekayədə təbiət lövhələri çox canlı və qabarıq şəkildə verilir. Əsərdə göründüyü kimi, yazıçı nənənin dili ilə təbiəti qorumağa, onun hər çiçəyini, quşunu sevməyə səsləyir. Əsərdə uşaqlıqdan insanlara ədalət, mərhəmət, təbiətə sevgi hissinin aşılanması ideyası Gəncəli Sabahinin bir yazıçı kimi yaradıcılıq amalına uyğundur.

Sənətkar öz humanist ideyalarını insan və təbiət ünsiyyətinin mahiyyəti fonunda ifadə etməyə üstünlük verir.

Milli Hökumətin süqutundan sonra da əsərlərin əsas mövzusu o dövrdə baş vermiş milli demokratik hərəkatın işıqlanması ilə bağlı idi. Bu isə Cənubi Azərbaycan yazıçıları arasında eyni mövzuda birləşən, lakin çox rəngarəng və fərqli bir ədəbiyyatın yaradılmasına da zəmin hazırlayırdı.

Gəncəli Sabahinin "İnsanı azdıran" hekayəsində 1945-ci ilin 21 Azər hərəkatı ilə bağlı hadisələrə toxunulur. Milli hökumətin devrilməsindən dərhal sonra bütün tərəqqipərvər ziyalılar, demokratik hərəkatın iştirakçıları təqib olundu, həbsxanalara salındı. Hekayənin qəhrəmanı Həmidin atası da zindana atıldı, dözülməz işgəncə ilə öldürüldü. Atasının ölümü gənc Həmidi sarsıdır, onda şahlıq rejiminə qarşı nifrət oyadır. Həmid bütün həyatını şah üsuli-idarəsinə qarşı mübarizəyə həsr edir [2, s.141].

Yazıçı "Həyat faciələri" kitabında toplanmış digər əsərlərində isə bəşəri problemlərin yaranma səbəbi və həlli yollarından söhbət açır. O, şah zindanlarında məşəqqətlərə qatlaşan inqilabçıların həyatına, durğunluq dövründə baş alıb gedən ictimai ədalətsizliklərə diqqəti cəlb edir.

Bu nəsr toplusunda "Həyat faciələri", "Xain" və "Şərəfli ölüm" adlı hekayələrində xalqın azadlıq mücadiləsi əsas yer tutur. Bu hekayələrdə xalqın arxaik həyat vərdişlərinə qarşı mübarizəsindən bəhs olunur, öz şəxsi mənafeləri üçün xalqı yadelli istismarçılara satan şah əlaltıları ifşa edilir. "Şərəfli ölüm" hekayəsində isə xalqı zülm altında saxlayan hakim qüvvələrin törətdikləri haqsızlıqlardan, şərəfli ölümü şərəfsiz yaşamaqdan üstün tutan, bir qəhrəman azərbaycanlı döyüşçünün mənəvi zənginliyindən və düşmənlə barışmazlığından danışılır. Gəncəli Sabahinin yaradıcılığını geniş təhlilə cəlb edən cənublu araşdırmaçı Eldar Muğanlıya görə, ədibin "Şərəfli ölüm" hekayəsi, onun ədəbi yaradıcılığının ən gözəl nümunələrindən sayıla bilər [4].

Göründüyü kimi, Gəncəli Sabahinin bədii nəsr əsərləri müxtəlif illərdə və başqa-başqa mövzularda yazılsa da, onları bir ideya birləşdirirdi. Qələmə alınan hekayələrin ana xətti, xalqın güzəranı, məişəti, kəndli və mülkədar arasındakı toqquşma və münaqişələr üzərində qurulmuşdu. Azərbaycanın milli məsələləri ilə bağlı yazılar da aparıcı mövzulardan idi.

"Ötən günlərim" adlı xatirə povestini ədibin avtobiqrafik əsəri saymaq olar. Xatirə povestdə yeddi yaşından anası ilə atasının yanına Quzeyə yola düşən, 33 il Gədəbəy, Şəmkir və Gəncədə yaşayan Gəncəlinin məktəb illərindən tutmuş, instituta daxil olanadək və Qazaxıstan çöllərində ailəsi ilə başı min bir olmazın əzablar çəkərkən keçdiyi ömür yolundan və həyat epizodlarından bəhs olunur. Şəmkirdə bir vaxtlar məskunlaşıb icma halında yaşayan alman ailələrinin qarışqa kimi zəhmətsevərliyindən, intizamlılığından, quruculuğundan heyranlıqla danışır. Povestdə yaşadığı ayrı-ayrı yerlərin coğrafiyası, xalqların etnoqrafiyası, həmin illərin tarixi hadisələri haqqında maraqlı bilgilər sərgiləyir. Yazıçı əsəri 1952-ci ildə Tehranda yazıb bitirmişdir. Povestdə 40 yaşında Vətənə dönən yazıçının yenidən Loristanın müxtəlif yerlərində ailəsindən uzaq olan sürgün həyatından səhifələr də özünə yer alıb.

Güney Azərbaycan ədəbiyyatının tanınmış tədqiqatçısı Sabir Nəbioğlu yazır: "Əsərə çox çəkili siqlət bəxş edən ədəbi keyfiyyətlərdən biri Sabahinin başına gələnlərin simasında 1937-1938-ci və 1946-cı illərdə böyük tarixi ədalətsizliklərdən əzab çəkən bir xalqın faciələrini ustad sənətkar qələmi ilə əyaniləşdirə bilməsidir. Bu günahsız müqəssirlər həm stalinizmin ürəksiz məmurları tə-

rəfindən yurd-yuvalarından didərgin salınır, həm şah cəlladlarının, həm də insanlara qənim kəsilən qaragüruhçu məmurların vəhşiliklərinə məruz qalırlar" [5, s.54].

"Ötən günlərim" povesti həyati epizodlar və canlı insan sürətləri ilə zəngindir. G.Sabahinin əsərlərində, adətən, mükalimələrə geniş yer verilir. Bu isə xarakterlərin yaxından tanıdılmasına böyük xidmət göstərir.

Bu mükalimələrdən biri sürgün müddəti başa çatmış adamla Vətənə dönmək üçün ona sənəd verməli olan – sütunları millətə biganəlik özülü, insana tamahını doyurmaq üçün bir vasitə kimi baxan şah məmuru arasında olmuşdur.

"Şah "Əfvi-ümumi" verməyə məcbur oldu. Mən də başqa sürgün olmuşlar kimi yığışıb Xürrəmabada gəldim. Biz bu idarəyə müraciət etməklə azadlıq vərəqəmizi almalı idik. Məni bir kapitanın yanına göndərdilər. O:

- Hara getmək istəyirsən? - deyə sual verdi.

- Təbrizə, dedim.

Mənə tərəf dönüb arxayın bir səslə:

- Qüssə yemə, mən düzəldərəm, – dedi, ancaq bir az xərci var. Bir beş yüz tümən olsa, mən düzəldərəm, – dedikdə mənim gözlərim böyüdü. İki il zindan, qara günlər keçirdikdən sonra məndən rüşvət ummaq.

Üç yüz, iki yüz, axırda əlli tümənə qane oldu. Mən qəti bir səslə:

- Dedim ki, mən Təbrizə getmirəm.

Məni orada qoyub yan otağa kecdi. İki dəqiqə keçmədi ki, bir polkovniklə geri qayıtdı. İndi də cənabi polkovnik mənimlə çənə vurmağa başladı. Bir nəticə ala bilməyəcəyini yəqin etdikdə hövsələsizliklə:

- Yaxşı, on tümən ver. Qoy Təbrizə yazsın" [7, s.63].

Müəllif görüb yaşadıqlarını, başına gələnləri xronologiya və bədiiliyi saxlamaqla qələmə alsa da, bu həm də o dövrdəki həyatın real mənzərəsi idi.

Əsrlər boyu Azərbaycanda, ümumən Şərq ədəbiyyatında nəsr poeziyaya nisbətən ikinci sırada olmuşdur. "Cənubi Azərbaycanda da nəsr poeziyaya nisbətən zəif inkişaf etmişdir" [2, s.34]. "Müəyyən səbəblər üzündən (nəşr edilmə imkanının məhdudluğu, ənənəvi Şərq mühitinin poeziyaya üstünlük verməsi və s.) nəsr nümunələri az yazılmışdır. Azərbaycanda nəsrin təşəkkülü, özünütəsdiqi yaxın yüzilliklərə təsadüf edir. Ədəbi-bədii dilin ləng inkişafı da Cənubda epik əsərlərin yaranmasını ləngitmişdir. Cənubi Azərbaycanda ilk nəsr örnəyi 1920-ci illərdə ədəbiyyata vəsiqə alsa da, onun inkişaf edib formalaşması sonrakı dövrlərə təsadüf edir. Yazılan hekayələrin dili bəzən ədəbi formanı çətinliklə qorumağı bacara bilib. Bunu da unutmayaq ki, Cənubi Azərbaycanda ədəbi dilin gəlişməsi müxtəlif siyasi və tarixi hadisələrdən dolayı çox az olmuşdur" [2, s.131].

1945-ci ildə qurulan Milli Hökumətlə birlikdə, Cənubi Azərbaycan nəsri, böyük bir təcrübə keçib tamamilə yeni bir xarakter aldı. Bir sıra anadilli qəzet və jurnalların nəşr olunması nəsr sahəsində əhəmiyyətli bir irəliləyiş yaratdı.

Bu dövrdə Fəthi Hoşginabi, Qulaməli Səmsan, Gəncəli Sabahi, Məhəmmədlu Abbasi, Əli Azəri, Məhəmmədəli Afiyət, Abbas Pənahi Makulu, Əli Təbrizli, Rəhim Dəqiq, Həbib Sahir, Məhəmmədəli Ocaqverdi, Qulamhüseyin Saidi, Mürtəza Məcidfər, Səməd Behrəngi, Abbas Mehyar, Söhrab Tahir, Həmid Məmmədzadə, Firuz Sadıqzadə, Qəhrəman Qəhrəmanzadə və başqaları Cənubi Azərbaycan nəsrinin inkişafında önəmli rol oynayıblar.

Ölkədə hakim diktator rejim Milli Hökumət dövründə yaranan türkcə kitab və dərgiləri yandırıb aradan götürməyə cəhdlər göstərib. Ancaq Azərbaycan xalqı və ziyalıları tarix boyunca hər zaman milli varlıqlarını qoruyub, assimilyasiyaya qarşı çıxıblar.

Azərbaycan türkcəsində Cənubda ilk romanı, eləcə də ilk hekayəni kim yazıb sualına araşdırıcıların fərqli fikirləri vardır. Yavuz Akpınar Əli Təbrizlinin şifahi xalq ənənələrindən faydalanaraq qələmə aldığı ikicildlik "Şah İsmayıl" adlı əsərini Cənubda roman növünün türkcə ilk nümunəsi olduğunu bildirir [1, s.88]. İlk hekayəyə gəlincə isə Makulu Pənahinin 1925-ci ildə "Yeni fikir" qəzetində hissə-hissə çap olunmuş "Pərişan" adlı hekayəsi nəzərə gəlsə də, başqa bir tədqiqatçı, tanınmış şair Eldar Muğanlı müasir Cənubi Azərbaycan ədəbiyyatının nəsr qolunun yaranması-

nı yazıçı Gəncəli Sabahinin adı ilə bağlayır. Eldar Muğanlı fikrini əsaslandırmaq üçün yazır ki, Azərbaycan dili və ədəbiyyatı üzrə akademik təhsil sahibi, dil və ədəbiyyatın incəliklərini və bədii xüsusiyyətlərini dərindən bilən, doğma xalqının mənəvi aləmini yaxşı tanıyan qocaman ədib parlaq nəsr əsərlərinin yaradıcısı olmuşdur. Ustad Sabahi sənətinin başlıca səciyyəsi dövrün ədəbi hərəkatını yönləndirmək və xüsusilə nəsrimizi demokratik mahiyyətə yönəltmək və ədəbi bir axına çevirməsidir" [3, s.7]. Eldar Muğanlının bu fikri ilə razılaşmamaq mümkün deyil, ona haqq qazandırır və fikrinə şərik oluruq.

Gəncəli Sabahi görkəmli nasir olmaqla yanaşı, Güney ədəbi tənqidinin də gözəl nümunələrini yaratmışdır. Bu baxımdan müəllifin "Şeirimiz zamanla addımlayır" adlı məqalələr toplusunda təqdim etdiyi yazılar Güney ədəbiyyatının tənqid və ədəbiyyatşunaslığında çox mühüm yer tutur. Ədibin bu kitabı Güney Azərbaycan ədəbiyyatı tarixində yazıçı və şairlərin ömür yolu və yaradıcılıqları haqqında yazılan ilkin mənbələrdən sayıla bilər.

Gəncəli Sabahinin "Şeirimiz zamanla addımlayır" kitabında toplanmış məqalələr, ayrı-ayrı illərdə yazılmış və əsasən, Güney Azərbaycan şair və yazıçılarının yaradıcılığına həsr edilmişdir. Bu baxımdan onun kitabdakı "Keçmişə qısa bir nəzər" (1360/1981), "Xalq şairi Səhənd" (1358/1979), "Ədəbiyyatın ictimai həyata təsiri"(1359/1980), "Xalq şairi Sahirin yaradıcılığına ümumi bir baxış" (1358/1979), "Məhzunun həyat və yaradıcılığı"(1344-1965), "Saz-söz ustadı Aşıq Ələsgər" (1351/1972), Sönməz (1359/1980), "Mübariz şair Haşım Tərlan" (1358/1979), "Xalq şairi Səhənd xatirələrimdə" (1359/1980) kimi tənqidi məqalələri Cənub ədəbiyyatşünaslığında xüsusi elmi-ədəbi dəyərə malikdır.

Gəncəli Sabahi "Ədəbiyyatın ictimai həyata təsiri" adlı məqaləsində Quzey Azərbaycan ədəbiyyatının klassik nümunələrindən olan Cəlil Məmmədquluzadənin "Anamın kitabı" dramından və Xalq şairi Səməd Vurğunun "Aygün" poemasından bəhs edir.

Gəncəli Sabahi kitabın baş məqaləsində XX əsrin sonlarından başlayaraq ölkənin siyasi, iqtisadi və sosioloji həyatını yığcam şəkildə təhlil edir və ədəbi hərəkatın keçdiyi yolu qiymətləndirir. Müəllif həmin dövrdə yazıb-yaradan sənətkarların əsərlərindən nümunələr göstərməklə ədəbi prosesin ümumi mənzərəsi barədə yetərincə təsəvvür yaradır. Onun təhlili Pəhləvi sülaləsinin iflası, İran İslam Respublikasının yaranmasına qədər olan dövrü əhatə edir. Məqalənin hədəf və qayəsi müəllifin aşağıdakı sətirlərində dolğun şəkildə ifadəsini tapmışdır:

..."Ədib və yazıçılarımızın bu ağır və dözülməz, dəhşətli illərdə necə öz ürəklərinin yağını əridib, məşəl edərək xalqın mübarizə yollarının işıqlandırmasına işarə etmək istəyirəm" [3, s.10].

Müəllifin əsərlərindən nümunə göstərdiyi şairlər sırasında ustad şairimiz M.Ə. Sabirdən tutmuş, M.Ə.Möcüz, Əli Fitrət, Məhəmməd Biriya, Mir Mehdi Etimad, Balaş Azəroğlu, Mir Mehdi Çavuşi, Mədinə Gülgün, İbrahim Zakir, Haşım Tərlan, Həbib Sahir, Müzəffər Dirəfşi, M.B.Niknam,Yəhya Şeyda, Əziz Möhsüni, Qaflantı, Hüseyn Düzgün, Çayoğlu, Urmuoğlu, Türkoğlu, Bəxtiyar kimi müəlliflərin adlarını qeyd etmək olar. Bu əsər Cənubi Azərbaycan ədəbi fikrində də yeni nəzəri problemlərin öyrənilməsində böyük təkan oldu.

## Nəticə / *Conclusion*

Gəncəli Sabahi Güney Azərbaycanda çağdaş anadilli Güney nəsrinin atası, yaradıcısı sayılır. Gəncəli görkəmli nasir olmaqla yanaşı, Güney ədəbi tənqidinin də gözəl nümunələrini yaratmışdır. G.Sabahiyə qədər ədəbiyyatşünaslıq daha çox təzkirəçilik, təsvirçilik ənənəsinə söykənirdi. O, bu əsəri yazmaqla bir zamanlar D.S.Komissarovun söylədiyi kimi, "İran mühiti üçün xarakterik olan faktların sadalanması və təsvirçiliyindən analitik metoda keçə bildi" [9, s.96].

## Ədəbiyyat / *References*

1. Akpınar, Y. Azerı Edebiyatı Araştırmaları. – İstanbul: Dergah Yayınları, 1994.
2. Məmmədli, P. "Varlıq" jurnalında ədəbiyyat məsələləri". – Bakı: Elm, 2000.

3. Muğanlı, E. Müasir Demokratik Ədəbiyyatımızın nəsr atası. – Tehran: Azəri məcəlləsi, №5, 1383 (2005).
4. Muğanlı, E. Gəncəli Sabahinin həyat və yaradıcılığına dair. www.İshiq.net https://ishiq.net/m%C9%99qal%C9%99/22669/16 şəhrivər, 1397-2019
5. Nəbioğlu (Əmirov) Sabir. Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatı (1941-1990). – Bakı: Elm, 2000.
6. Sabahi, G. "Ovçu". – Tehran: "Varlıq" jurnalı, №3,1979
7. Sabahi, G. "Ötən günlərim". – Tehran: Dünya nəşriyyatı , 1372/1993
8. Sabahi, G. Qartal. – Tehran: Fərzanə nəşriyyatı, 1357 (1978)
9. Комиссаров, Д.С. О современном Иранском литературоведении. – Москва, 1983.


## Литературная среда и творчество Гянджали Сабахи


**Парвана Мамедли**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: mamedli_ph@yahoo.com



**Резюме.** В литературной среде Южного Азербайджана Гянджали Сабахи был воспринят как "отец исконной южной прозы". Несмотря на то, что он и его народ испытали множество невзгод, что отражено в его произведениях, эти страдания не только послужили напоминанием о трагедиях прошлого, но и выразили надежду на будущее.

Художественные произведения Гянджали Сабахи были написаны в разные годы и на разные темы, их объединяла идея национальных проблем Азербайджана.



**Ключевые слова:** Гянджали Сабахи, Южный Азербайджан, литературная среда, проза, национальные проблемы